

# SƏNƏTİN ZİYALILIQ ZİRVƏSİ

*Azərbaycan teatr tarixində elə aktyorlar var ki, onlar milli səhnə sənətimizin təşəkkülünün sütunları əzəmətindədirlər. Cahangir Zeynalov belə şəxsiyyətlərdəndir.*
*...Cahangir Zeynalov səhnə sənətimizdə bir sıra özəlliklərin müəllifi, respublikamızın ilk peşəkar aktyorlarından biri, "Ev teatrı"nın yaradıcısı, Azərbaycan realist aktyor məktəbinin banisidir...*

Cahangir Zeynalov ölkəmizdə aktyorluq sənətinin nəzəri-estetik prinsiplərini müəyyənləşdirib qələmə alan ilk nəzəriyyəçi aktyor-teatrşünas, kasıb səhnə fədailərinə teatr mövsümündə hər ay müəyyən donluq (maaş) verən ilk ziyalı, şəxsiyyəti cəmiyyətin bütün təbəqələrində, ehtiramı hər yerdə uca tutulan sənətkardır.

Ən nəhayət, Cahangir Zeynalov Azərbaycan peşəkar teatrının tarixində qüdrətli nəsil səcərəsi yaradan ilk aktyordur. Onun özü (1885–1918-ci illərdə), aktrisa qızı Nəsibə xanım Zeynalova (1932–2004-cü illərdə), nəvəsi – aktyor və rejissor, pedaqoq Cahangir Novruzov (1971-ci ildən indiyədək) milli teatr tariximizdə parlaq səhifələr yazıblar.

Təbii ki, bu siyahını kifayət qədər uzatmaq olar. Ancaq haqqında söhbət açılan insan ilk növbədə Azərbaycan teatrının qüdrətli simalarının ilk üçlüyünə daxil olduğuna görə mən də onun ləyaqətlə yaşanan ömür yolunun bu qoluna xüsusi diqqət ayırmaq istəyirəm.

* * *

Səhnəyə ilk dəfə 1885-ci ilin Novruz bayramında çıxıb.

Bu o zamanlar idi ki, Mirzə Fətəli Axundzadə 7 il əvvəl dünyasını dəyişmişdi, Azərbaycanın teatr fədailəri bayramlardan-bayramlara (əsasən, Orucluq, Qurban və Novruz bayramlarında) tamaşalar oynayardılar, Bakıda hələ kiçik və pərakəndə şəkildə fəaliyyət göstərən truppa yox idi, teatr tamaşalarını müəllimlər, türk-rus məktəbinin şagirdləri təşkil edirdilər.

Bu elə vaxtlar idi ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda teatr sənətinin inkişafında misilsiz xidmətləri olan Nəcəf bəy Vəzirov Petrovski-Razumovski Akademiyasının meşəçilik şöbəsini bitirərək İrəvan quberniyasının Dilican nahiyəsində meşəbəyi işləyirdi. Əbdürrəhim bəy Haqverdiyev hələ Şuşada realni məktəbdə, Nəriman Nərimanov Gürcüstanda Qori Müəllimlər Seminariyasında oxuyurdular. İlk teatr truppasını yaratmaq istiqamətində səmərəli işlər görmüş Sultanməcid Qənizadə və Həbib bəy Mahmudbəyov Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutunda təhsil alırdılar. Üzeyir bəy Hacıbəyli isə Cahangir səhnəyə çıxandan altı ay sonra doğulub...

SSRİ xalq artistləri Mirzağa Əliyev səhnəyə ilk dəfə Cahangir Zeynalovdan 16 il sonra (1901-ci il), Sidqi Ruhulla 23 il sonra (1908-ci il), teatr fədaisi Hüseyn Ərəblinski 12 il sonra (1897-ci il), xalq artistləri Hüseynqulu Sarabski 17 il sonra (1902-ci ildə), Abbasmirzə Şərifzadə 23 il sonra (1908-ci il) çıxıblar...

Bütün bunları nə üçün xatırladıram?

Ona görə yada salıram ki, baxın görün tarixin belə bir mürəkkəb gərdişli zamanında Cahangir Zeynalov səhnəyə məhəbbəti, sadiq fədailiyi ilə necə möhtəşəm cəngavər idi. Yaratmaq eşqinin atəşi onu heç vaxt tərk etməmişdi. Aktyorun sənət yanğısı onun qəlbinə, davranışına hakim kəsilən səmimiyyətlə birləşərək ifa etdiyi obrazlara təbiilik ruhu aşılayırdı.

Peşəkar teatrımızın təşəkkül tapmasından sonra rol üzərində



nəzəri prinsiplərlə, bədii mətnin ideya yükünə uyğun şəkildə yaradıcı axtarışlarla işləyən Cahangir Zeynalov olub. Buna görə də onun ifasında hər hansı səhnə süjetinin inkişaf xəttini ifadəli aydınlıqla görmək mümkün idi.



Cahangir Zeynalov
həyat yoldaşı Hüsniyyə xanımla

**O, indiki Azərbaycan və Dilarə Əliyeva küçələrinin kəsişməsində yerləşən Respublika Şahmat Mərkəzinin yerindəki şəxsi evində yaşayırdı. Bu ərazi həmin dövrdə bazar küçəsi adlanırdı. Evinin şimal pəncərələri Quba meydanına açılırdı. Hər iki məkan gur ticarəti ilə məşhur idi. Ağa Cahangir böyük bir zalını məşq üçün ayırmışdı. Hətta otağın baş hissəsində səhnə də düzəltdirmişdi. Mirzağa Əliyev, Hacıağa Abbasov, Məhəmməd Əlvəndi, Əbülfət Vəli, Hüseyn Ərəblinski, Mirmahmud Kazımovski kimi aktyorlar, səhnə fədailəri olan müəllimlər Sultanməcid Qənizadə, Həbib bəy Mahmudbəyov və digər səhnə vurğunları həmin zalda məşq etmiş, tamaşalar hazırlamışlar. Cahangir Zeynalov məşqdən sonra iştirakçıların hamısına bir yerdə süfrə açardı.**

Tarixdən məlumdur ki, Hacı Zeynalabdin Tağıyevin teatr binası həmişə əcnəbilərin, xüsusən uzun illər Polonskinin icarəsində olub. Onun truppasında Pyotr Krayevski adlı məşhur komik vardı. XX əsrin ilk onilliyinin ikinci yarısında Cahangir Zeynalov onunla danışıb ki, gənc aktyorlar Mirzağa Əliyev, Hacıağa Abbasov və daha bir neçə səhnə həvəskarı ilə məşğələlər aparsın, onlara ustad dərsləri versin. Krayevski razılaşıb və bu köməkliyinə görə hər ay Cahangir bəydən zəhməthaqqı alıb. Hacıağa Abbasov öz xatirələrində yazır ki, Krayevskinin sənət təlimləri bizim üçün kiçik məktəb idi.

* * *

Cahangir Zeynalov səhnədə son dəfə 9 mart 1918-ci ildə "Hacı Qara" tamaşasında baş rolda çıxış edib. "İsmailiyyə" binasında göstərilən bu tamaşanı "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti" truppası hazırlamışdı. Tamaşaya quruluşu Hüseyn Ərəblinski vermişdi. Həmin dövrdə truppanın baş rejissoru Üzeyir bəy Hacıbəyli idi.

"Hacı Qara" tamaşası oynanılandan təxminən iki həftə sonra, 1918-ci ilin 17 martında mənfur erməni daşnakları Bakıda vəhşiliklə yanğınlar və qırğınlar törətdilər. Soyqırımına məruz qalmamaq üçün Cahangir Zeynalov həyat yoldaşı Hüsniyyə xanımla və körpə qızı Nəsibə ilə İranın Ənzəli şəhərinə, ticarət məsələləriylə bağlı müvəqqəti orada yaşayan qayınatası Məşədi Əbdüldayan Hüseynovun yanına gedib. Oktyabrın əvvəllərində, ara sakitləşəndə ailəsi ilə Bakıya qayıdıb. Dənizdə güclü fırtına olduğuna görə onları gətirən "Ərdəhan" gəmisi sahilə yan ala bilməyib. Səkkiz gün açıq dənizdə qalan gəmidə natəmizlikdən yatalaq (tif) xəstəlyi yaranıb. Cahangir Zeynalov da bu xəstəliyə tutulub. Nəhayət, şəhərə çatandan bir həftə sonra yaxın dostlarından, hətta əksər qohumlarından xəbərsiz 22 oktyabr 1918-ci ildə dünyasını dəyişib.

* * *

Cahangir Zeynalovun səhnə fəaliyyətini iki hissəyə bölmək olar:
– aktyorluq fəaliyyəti;
– rejissorluq yaradıcılığı.

Onun aktyorluq fəaliyyətinin özünü də iki qismə ayırmaq mümkündür: milli dramaturqların müxtəlif janrlı pyeslərinin tamaşalarında və tərcümə əsərlərində oynadığı rollar. Qeyd edim ki, aktyor ifa etdiyi rolların əksəriyyətini müxtəlif quruluşlarda dəfələrlə oynayıb.

**Azərbaycan müəlliflərinin dram, faciə və komediyalarında ifa etdiyi rollar: Mirzə Fətəli Axundzadənin komediyalarında Hacı Qara ("Hacı Qara"), Şahbaz bəy və Məstəlişah ("Müsyö Jordan və dərviş Məstəlişah"), Molla İbrahimxəlil ("Molla İbrahimxəlil kimyagər"), Tarverdi ("Xırs quldurbasan"), Mirzə Həbib ("Lənkəran xanının vəziri"); Nəcəf bəy Vəzirovun əsərlərində Hacı Qənbər ("Hacı Qənbər"), Ağakərim xan ("Ağa Kərim xan Ərdəbili"), Vəli ("Müsibəti-Fəxrəddin"); Əbdürrəhim bəy Haqverdiyevin dram və faciələrində Tavad Maqobeli, Rzaqulu Mirzə və Mirzə Cəfər xan ("Ağa Məhəmməd şah Qacar"), Hacı Səməd ağa ("Bəxtsiz cavan"), Kişi ("Kimdir müqəssir?"), Mahmud ("Millət dostları"), Dərviş ("Xəyalət"); Nəriman Nərimanovun pyeslərinin tamaşalarında Şamdan bəy və Hacı İbrahim ("Şamdan bəy"), Ədhəm və Cavad ("Nadir şah". Bu əsər "Nadir şah Əfşar və yaxud İranın Kəbir inqilabı" adı ilə də oynanılıb); həmçinin İsmayıl Rüstəmbəyovun "Dövləti bisəmər"ində Hacı Fərəc, Mehdi bəy Hacınskinin "Sultan Əbdüləzizin xəli"ndə Həsən Xeyrulla Əfəndi, Süleyman Sani Axundovun "Tamahkar"ında Hacı Murad.**

Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar" (Məşədi Şaban), "Xor-xor" (Seyfulla), "Dursunəli və ballıbadı" (Dursunəli), Məmmədhəsən Həsənovun "Pinəçi Seyfulla" (Seyfulla), Vasaq Mədətovun (Nəzminin) "Qırt-qırt" (Ağa Murad), İsgəndər Məlikovun "Yaxşılığa yamanlıq" (Kişi), "Molla Nəsrəddin" (Molla Nəsrəddin) vodevillərində əsas obrazları ifa edib.

Əcnəbi dramaturqlardan Lev Tolstoyun "Əvvəlinci şərabçı" (Potap), Fridrix Şillerin "Qaçaqlar" (Qoca Moor), Jan Batist Molyerin "Zorən təbib" (Eyvaz), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Qubad və Fərhad), "Əhdə vəfa" (Zübeyr), Hüseyin Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (Rəbi), Sergey Lanskoyun "Qəzavat" (Qoca sərkərdə), Vano Mçedlişvilinin "Qaçaq Kərəm" (Çinovnik və Xanın katibi), Namiq Kamalın "Vətən, yaxud Osmanlı müharibəsi" (Şeyxülislam) əsərlərinin tamaşalarında maraqlı və əlvan səhnə personajları yaradıb. Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" ("Məşədi İbad") operettasında Rza bəy və Rüstəm bəy, Zülfüqar Hacıbəylinin "Evliykən subay"ında Haci Soltan obrazlarını şövqlə oynayıb.

Cahangir Zeynalovun zəngin yaradıcılığının rejissorluq qolu xüsusi tədqiqata layiqdir. Bu sahədə səmərəli fəaliyyət göstərən sənətkar "Səfa" teatr truppasında Mirirzə Fətəli Axundzadənin "Hacı Qara", Nəcəf bəy Vəzirovun "Hacı Qənbər", Namiq Kamalın "Vətən, yaxud Osmanlı müharibəsi", "Əhdə vəfa", Zülfüqar bəy Hacıbəylinin "Evliykən subay", Əbdürrəhim bəy Haqverdiyevin "Millət dostları", Jan Batist Molyerin "Zorən təbib", digər truppalarda Cəlal Yusifzadənin "Fərhad və Şirin" (opera), Şəmsəddin Saminin "Dəmirçi Gavə", Nəriman Nərimanovun "Nadir şah" ("Nadir şah Əfşar" adı ilə) səhnə əsərlərinə maraqlı quruluşlar verib. Onun hazırladığı komediyalarda meydan teatrının ifadə prinsiplərindən, oynadığı məsxərə personajlarında milli karnaval estetikasından həssaslıqla istifadə olunub.

Cahangir Zeynalovun yaradıcılığının özünəməxsus estetik səciyyələri var. Bədii cəhətdən məna və məzmununu, mahiyyət və dəyərini çağdaş dövrümüzdə də saxlayan bu səciyyələrin bir neçəsini göstərmək yerinə düşər.

Aktyor milli folklorumuzun, xalq oyun-tamaşalarının mayasından şirələnən yumordan yaradıcılıqla bəhrələnib, o dövrdə dəbdə olan süni pafosla danışmaqdan, ritorikadan, boğazdan yuxarı deklamasiyaçılıqdan, saxta hərəkətlərdən cəsarətlə imtina edib, teatrda estetik savadsızlığın əleyhinə çıxaraq real oyun-ifa üslubunun sistemlər toplusunu yaradıb, oynadığı rolda doğruçuluğa, həyatiliyə, inandırıcılığa nail olmaq üçün daxili inkişaf məntiqinə əsaslanıb, müxtəlif üslubları öz oyununda həssaslıqla, yüksək peşəkarlıqla, ahəngdar cazibədarlıqla sintez edə bilib, onun bünövrəsini qoyduğu aktyor məktəbi köklü və davamlı prinsiplər əsasında qurulmaqla ə poetikasının müəyyən vacib göstərici-prinsiplərini formalaşdırıb.

Rolunu nə qədər coşqun ehtirasla, çılğın temperamentlə oy nasa da, heç vaxt obrazın daxili sürət-ritminin inkişaf ahəngində çıxmırdı. Həmin rolla təqdim etmək istədiyi bədii-estetik fikrin əsa mahiyyətindən uzaqlaşmırdı. Eyni zamanda həqiqət, reallıq, təbiili cazibədarlıq keyfiyyətlərinə daim sadiq qalırdı.

Oynadığı obrazın (məsələn: Hacı Qara, Hacı Qənbər, Vəzir Mirz Həbib) ictimai-sosial mənsubiyyətindən çıxış edərək onun cəmiy yətdə tutduğu mövqeyi özü üçün aydınlaşdırırdı. Sonra qənaətlərin uyğun məntiqlə personajın davranışını, ədalarını, danışıq tərzini, ge yimini müəyyənləşdirirdi.

Müxtəlif tamaşalarda və yaşının müxtəlif çağlarında dramatik ro lar (məsələn: Hacı Səməd ağa, Qoca Moor) oynasa da, təbiətən, ya radıcılıq ehtirasının ifadə zənginliyi baxımından komik olan Cahang Zeynalov sənətdə hər cür zahiri əyləncəliyin, yüngül oyunbazlığın



Teatr dəftərçəsi

şitliyin əleyhinə idi. Teatrı – yüksək, ülvi hisslərə, mənəvi-əxlaqi dəyərlərə çıraq tutan müqəddəs sənət ocağı sanırdı.

> **El arasında daim özünü yüksək ləyaqətlə, ağır ağayanalıqla aparıb. Kamil şəxsiyyət kimi hər yerdə hörmət və izzəti uca tutulub. Həyatda, müxtəlif təbəqəli cəmiyyətdə onu müdrik ağsaqqal, xeyirxah insan, kamil ziyalı kimi qəbul ediblər. Aktyor peşəsini həmişə müqəddəs tutub. Sənətinə ciddi yanaşmayanları sərtliklə tənbeh edib. Bütövlükdə teatra əvəzsiz tərbiyə ocağı kimi baxıb...**

İlham Rəhimli,
professor